# Növbəti uğurların anonsları



***Dövlət başçısının hər il yanvar ayında yerli televiziya kanalları üçün geniş müsahibə verməsi artıq ənənəvi xarakter alıb***

Prezident İlham Əliyevin son 3 ildə yanvar ayında yerli televiziya kanalları üçün geniş müsahibə verməsi artıq ənənəvi xarakter alıb. İctimaiyyəti maraqlandıran ən mühüm suallara bu müsahibə fonunda aydınlıq gətirilir.

2022 və 2023-cü illərdə əsası qoyulmuş bu ənənə 2024-cü ildə də davam etdirildi. Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına müsahibələrində bir çox məsələləri - mühüm tarixi və siyasi məqamları diqqətə çatdırmaqla yanaşı, yeni şəraitdə həm regional, həm də beynəlxalq təhlükəsizlik və əməkdaşlıqla əlaqədar Azərbaycanın mövqeyini aydın ifadə edir.

**(davamı 5-ci səhifədə)**

# Növbəti uğurların anonsları



**(əvvəli 1-ci səhifədə)**

Dövlət başçısının hər bir çıxışı, müraciəti, yerli, yaxud xarici mətbuata müsahibələri Azərbaycanın ədalətə, beynəlxalq hüquqa söykənən müstəqil siyasətinin uğurlarının və onların əsasında müəyyənləşdirilən hədəflərin təqdimatı kimi dəyərləndirilir. Vətən müharibəsindən sonra son 3 il ərzində Prezident İlham Əliyev təqribən 40-a yaxın KİV-ə geniş müsahibə verib. 2023-cü ildə də bu proses davam etdirilib. KİV-lərə verdiyi müsahibələr beynəlxalq səviyyədə diqqət çəkib, reaksiyalar doğurub. Amma il üzrə ilk canlı təmasların məhz milli KİV-lər üzərindən, həm də geniş formatda gerçəkləşdirilməsi xüsusi önəm daşıyır. Onu da qeyd etmək lazımdır ki, artıq ölkə ictimaiyyəti, bütövlükdə xalqımız da dünyada baş verən proseslərə, ölkəmizlə bağlı narahatlıq doğuran məqamlara münasibəti ən etibarlı mənbə kimi qəbul etdikləri birinci şəxsin dilindən eşitməyə vərdiş ediblər. Təbii ki, dövlət başçımız xarici kütləvi informasiya vasitələrinə olduğu kimi, yerli mediaya da tam açıqdır və gündəmi dəyişdirən siyasi, iqtisadi, mədəni hadisələri nəzərə alaraq tez-tez Azərbaycan ictimaiyyətinə müraciət edir, bütün vacib mövzularla bağlı rəy və fikrini bildirir, təkliflərini verir. Cəmiyyətin bütün nümayəndələri dövlət başçısının geniş müsahibələrini intizarla gözləyir və diqqətlə dinləyirlər.

**Dövlət başçısının hər il yanvar ayında yerli televiziya kanalları üçün geniş müsahibə verməsi artıq ənənəvi xarakter alıb**








Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verib. Dövlətimizin başçısı müsahibədə jurnalistlərin Azərbaycanda 2021-ci ildə iqtisadi, sosial sahələrdə görülən işlərə, Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərə, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinə, ölkəmizin xarici siyasətinə və digər məsələlərə dair suallarını cavablandırıb. Azərbaycan Prezidenti, ilk növbədə, iqtisadi məsələlərə dair suallara cavab verdi. İl ərzində ölkəmizdə iqtisadi artımın 5 faizdən çox olduğunu diqqətə çatdırdı, müharibədən yenicə çıxmış ölkə üçün bunu gözəl bir göstərici kimi xarakterizə etdi. Qeyri-neft sektorunda iqtisadiyyatımızın 7,2 faiz artmasını da sevindirici hal kimi qiymətləndirdi. Dövlət rəhbərimizin verdiyi açıqlamadan məlum oldu ki, Azərbaycanda ümumi sənaye istehsalı il ərzində 5 faizdən çox, həmçinin qeyri-neft sənayesində 20 faizə yaxın artım var.

Prezident İlham Əliyev müsahibə zamanı onu da vurğuladı ki, aparılan siyasətin təməlində insan amili olduğu üçün daim sosial sahəyə xüsusi diqqət göstərilir. Həm maaşların, pensiyaların, təqaüdlərin qaldırılması, həm də sosial obyektlərin yaradılması, şəhid ailələrinə, keçmiş məcburi köçkünlərə diqqətin göstərilməsi kimi sosial paket iqtisadi islahatların uğurla həyata keçirilməsinə imkan verir.

Prezident İlham Əliyev müsahibəsində, ilk növbədə, Ermənistanın sərhəd bölgəsində Azərbaycan hərbi qulluqçularına qarşı növbəti hərbi təxribatına münasibət bildirdi. Bunun müharibədən sonra baş verən birinci hadisə olmadığını xatırlatdı. Azərbaycanın bundan əvvəlki bütün cavab tədbirlərindən Ermənistanın hələ də ibrət dərsi ala bilmədiyini təəssüflə qeyd etdi: "Azərbaycan Silahlı Qüvvələri cinayətkarları cəzalandırmaq üçün qəti tədbirlər görüblər və bu gün müdafiə nazirindən aldığım məlumata görə, düşmən tərəfin 6-8 hərbi qulluqçusu məhv edilib, çoxları yaralanıb. Bu hadisədən bir qədər sonra erməni tərəfi təkidlə atəşin dayandırılmasını xahiş etməyə başladı. Lakin onlar başa düşməlidirlər ki, azərbaycanlı hərbi qulluqçunun ölümü heç vaxt onlara bağışlanmayacaq". Rəsmi Bakının ordu quruculuğu istiqamətində atdığı növbəti addımlardan, o cümlədən Komando Qüvvələrinin yaradılmasından danışan Ali Baş Komandan bəyan etdi ki, əgər Ermənistandan bizim təhlükəsizliyimizə, azacıq da olsa, təhdid görünsə, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə məhv edəcəyik: "Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir".

2023-cü il yanvarın 10-da ilin ilk müsahibəsində Azərbaycan Prezidenti ölkəmizdə aparılan islahatlar, dövlət idarəetmə sistemində yeni modelin tətbiq olunacağının anonsunu da verdi. Qarabağ və Zəngəzurda tətbiq edilən yanaşmanın müsbət təzahürlərindən bəhs edən dövlətimizin başçısı bunun bütün ölkə üzrə həyata keçiriləcəyini bildirdi. Cənab İlham Əliyev diqqətə çatdırdı ki, üzərində işlər aparılan yeni idarəetmə modeli formalaşdırılarkən kadr potensialı önəmli rol oynayacaq. Azərbaycan dövləti iqtisadi cəhətdən günü-gündən inkişaf edir, güclənir, hər hansı bir kənar dəstək olmadan müstəqil şəkildə öz problemlərini özü həll edir. Yəni Azərbaycanın digər beynəlxalq təşkilatlardan, hansısa bir ölkədən asılılığı yoxdur. Bu da imkan verir ki, rəsmi Bakı müstəqil siyasətini öz dövlət maraqlarına, öz milli maraqlarına uyğun şəkildə aparsın.

Azərbaycan bölgədə və dünyada etibarlı və ciddi tərəfdaş kimi tanınır. Dövlət başçısının da qeyd etdiyi kimi, Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Bu qətiyyətin təməlində isə bizim həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır. Müharibənin bitməsi mübarizənin də dayandığı anlamına gəlməməlidir. Vətən müharibəsindən sonra Azərbaycan siyasətinə olan müsbət münasibət daha da artdı. Prezident İlham Əliyev müsahibəsində hər bir ölkənin inkişafında əsas amil olan iqtisadi tərəqqiyə diqqət çəkdi. Ölkəmizin iqtisadi və sosial siyasətinin biri-birini tamamladığını qeyd edən dövlətimizin başçısı islahatların davamlılığının ölkənin dayanıqlı inkişafının əsası olduğunu bildirdi.

Prezident İlham Əliyev bu müsahibədə ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyan bir çox vacib məsələlərə toxunub. Vurğulanıb ki, ötən il Azərbaycan üçün bir çox aspektlərdən uğurlu olmuşdur. Ordunun müdafiə qabiliyyəti daha da gücləndirilmiş, yeni komanda birlikləri yaradılmış, ölkə iqtisadiyyatının dayanıqlı inkişafı təmin edilmiş, şəhid ailələrinə və qazilərə diqqət və qayğı davam etdirilmişdir. Eyni zamanda ötən il həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizin 2020-ci ildə əldə etdiyi qələbənin dünya birliyi tərəfindən qəbul edilməsi istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini vermişdir.

44 günlük Vətən müharibəsinin nəticəsi olaraq Laçın şəhərinin azad olunmasını tarixi hadisə adlandıran dövlətimizin başçısı deyib ki, Laçın bizim tarixi diyarımızdır. Faktiki olaraq Laçın rayonunun işğalından sonra Ermənistanla o vaxtkı Dağlıq Qarabağ arasında coğrafi bağlantı yarandı və bizim gələcək məğlubiyyətimizin məhz təməli o vaxt qoyulmuşdur. Ən tez öz doğma ocaqlarına qayıdan laçınlılar olacaq. İndi Laçın şəhərində geniş quruculuq-bərpa gedir. Bu il Zabux və Sus kəndlərinə də keçmiş köçkünləri qaytaracağıq. Prezident Qarabağ və Şərqi-Zəngəzurda həyata keçirilən abadlıq və quruculuğu, bölgə əhalisinin həmin ərazilərə sürətli qayıdışının təmin olunması istiqamətində tədbirlərin uğurla icra olunduğunu xüsusi qeyd etdi.

Müsahibədə ölkə başçısı dünyanın ikili standartlara əsaslanan siyasətinin yaratdığı problemlərə də diqqət yönəldib. Belə ki, Azərbaycan istər 30 illik işğal, istər 44 günlük İkinci Qarabağ müharibəsi, istərsə də postmünaqişə dövründə bu yanaşma ilə üz-üzə olub. İkili siyasət əksər dünya güclərinin, eyni zamanda beynəlxalq təşkilatların nüfuzuna dividendlər gətirmir. Əksinə, onlara qarşı inamsızlıq yaradır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 28 il icrasını gözlədi. Dövlət başçısı İlham Əliyev müsahibədə vurguladı ki, BMT-yə münasibətimiz bəllidir. Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icra edilməməsi bu təşkilatın nüfuzuna, əgər belə yumşaq demək mümkündürsə, əlavə dəyər qatmadı. Amma indiki şəraitdə artıq təkcə biz yox, bir çox ölkələr israrla deyirlər ki, ciddi islahatlara ehtiyac var. Xüsusilə Təhlükəsizlik Şurasının tərkibinə yenidən baxılmalıdır. Təhlükəsizlik Şurasının formatı artıq köhnəlib və bunu tarix göstərir.

Prezident çıxışında Ermənistana növbəti dəfə ciddi xəbərdarlıq etdi və bildirdi ki, qarşı tərəf ötən dövrdə baş verənlərdən ciddi nəticə çıxarmalıdır. Qarabağ erməniləri Azərbaycanın idarəçiliyini qəbul etməlidirlər. Qəbul etmək istəməyənlər isə bu əraziləri tərk edə bilərlər. Prezident İlham Əliyev Şuşa-Laçın yolunda ermənilərin Qarabağda törətdikləri cinayətlərə etirazlarını bildirən gənclərə də təşəkkürünü bildirdi. Laçın-Xankəndi yolundakı aksiyaya münasibət bildirən dövlət başçısı erməni tərəfin hər vəchlə rəsmi Bakının Qarabağ iqtisadi rayonundakı erməniləri blokadada saxlamaqla bağlı dediklərini tam əsassız və absurd adlandırıb. Prezidentin müsahibəsində diqqətçəkən məqamlardan biri də budur ki, ölkə rəhbəri erməni tərəfin sülh danışıqlarında qeyi-konstruktiv mövqeyinə sərt münasibət göstərib: "Lakin bu, masa üzərində bir müddət olacaq. Sonra necə deyərlər, xüsusi fəallıq göstərməyəcəyik. İstəmirlər - heç lazım da deyil. Delimitasiyanı istəmirlər - heç lazım da deyil. Deməli, sərhəd bizim lazım bildiyimiz yerdən keçəcək". Prezident İlham Əliyev həmin müsahibədə Zəngəzur dəhlizi və Trans-Xəzər layihəsi ilə bağlı fikirlərini də bölüşüb. Ölkə başçısının açıqlamasından aydın olur ki, Azərbaycanın Qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır və Ermənistan bunu təmin etməlidir. Prezident İlham Əliyev qeyd edib ki, nəqliyyat sahəsində layihələr uzun illərdir davam edir. Biz bu sahələr üzrə uzun illərdir ki, sərmayə qoyuruq. Azərbaycan ərazisində həm Orta Dəhlizlə bağlı, həm Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün əsas işlər yekunlaşıb. Orta Dəhlizlə bağlı ardıcıl siyasətin aparıldığı bildirilib. Ona görə nəqliyyat sahəsində bu günə qədər görülən işlər və görülməyən işlər çox güclü zəmin yaradır. Artıq görülən işlər və bundan sonra görüləcək işlər, əlbəttə ki, bizim mövqeyimizi daha da gücləndirəcək. Cənab Prezident qeyd etmişdir ki, bütün sahələrdə proqramlar həyata keçirilir. Biz heç vaxt reallaşması mümkün olmayan təşəbbüslərlə çıxış etmirik. Dünyada baş verən geosiyasi proseslər - müharibələr, təbii fəlakətlər, iqlim dəyişikliyi və digər qlobal problemlərin yaratdığı iqtisadi təlatümlər fonunda Azərbaycan iqtisadiyyatının dinamik və çevik inkişafı, vətəndaşlarımızın sosial rifahının yaxşılaşdırılması üçün atılan mühüm addımlar ölkənin davamlı inkişaf yolunda olmasını bir daha sübut edir.

Prezident İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində jurnalistlərin ötən müddətdə Azərbaycanda iqtisadi, sosial sahələrdə görülən işlər, növbədənkənar Prezident seçkiləri, Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərə, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma, ölkəmizin xarici siyasətinə və digər vacib məsələlərlə bağlı suallarını cavablandırdı. İlk olaraq cənab Prezident İlham Əliyev fevralın 7-nə təyin edilən növbədənkənar prezident seçkilərini şərtləndirən əsas amillər barədə, ötən dövr ərzində ölkəmizin əldə etdiyi uğurlar və zəfərlərdən danışıb. Müsahibəsi zamanı 2023-cü ilin antiterror tədbirlərinə toxunan cənab Prezident İlham Əliyev bu əməliyyatın uğurla və yüksək peşəkarlıqla keçirildiyini vurğuladı. Bəli, 44 günlük Vətən müharibəsi və 2023-cü ilin antiterror tədbirləri dövlətimizin qüdrətini, hərbçilərimizin isə gücünü bütün dünyaya göstərdi. 2023-cü ilin antiterror tədbirlərindən sonra Ermənistan və onun havadarları bir daha anladı ki, Azərbaycan bir qarış torpağını kimsəyə güzəştə getməyəcək.

Prezident Ermənistan rəsmilərinin bu və ya başqa iddialarına cavab verib, yeni ismarışlar göndərib. Dövlət başçısı 2023-cü il sentyabr ayında həyata keçirilən antiterror tədbirlərindən sonra həm BMT-də, həm də Avropa İttifaqında Azərbaycana qarşı sanksiyalar tətbiq ediləcəyinə, Bakının böyük təzyiqlər altına düşəcəyinə dair Ermənistana vədlər verildiyini qeyd edərək deyib: "Bu əməliyyat, bütün bu kommunikasiyalar Ermənistanda əminlik yaratdı ki, onlar sülh müqaviləsini istədiyi kimi tərtib edə bilərlər və bizə də kimsə təzyiq edib bizi də razı sala bilərlər. Məhz buna görə 70 gün ərzində bizim təklifimizə, - çünki burada təkliflər mübadiləsi 5-6 dəfə gedib, mətnlər göndərilir şərhlərlə, - cavab vermirdi". Prezident bununla Ermənistan hakimiyyətinin yenə prosesə deyil, kənar qüvvələrə, havadarlarına fokuslandığını işarə edib: "Onu da bildirməliyəm ki, biz onlardan fərqli olaraq öz şərhlərimizi 70 gündən sonra yox, 30 gündən sonra göndərdik və ondan iki həftə sonra onlar, bax bu ayın 4-də yeni şərhlər göndərdilər. Yəni yenə də sual yaranır: Əgər bu şərhləri iki həftə ərzində vermək olarsa, sən keçən dəfə 70 gün nəyi gözləmisən? Yəni mənim fərziyyəm tam sübuta yetirilir". Dövlət başçısı bu ismarışı ilə İrəvanın sülh prosesində qeyri-ciddiliyini ortaya qoyub. Prezident İlham Əliyev Ermənistan hakimiyyətinə və havadarlarına Azərbaycanla sülh müqaviləsi imzalamaq üçün kənarda zəmanətçi axtarmağa ehtiyac olmadığını da çatdırıb.

Zəngəzur yolu ilə bağlı açıqlamalar verərək Ermənistanın ərazi bütövlüyü ilə bağlı canfəşanlıq edənlərə Azərbaycan Prezidenti qəti mövqeyini vurğulayıb: "Azərbaycandan Azərbaycana insanlar və yüklər heç bir yoxlama aparılmadan keçməlidir. Dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir". Prezident İlham Əliyev müsahibəsi zamanı azad edilən torparlarda aparılan quruculuq işlərinə də geniş yer verib. Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndlərinin artıq dirçəldiyini və həmin yaşayış məntəqələrinə keçmiş köçkünlərin qaytarılmasının davam ediləcəyini vurğulayıb.

Cənab Prezident İlham Əliyevin dəmir iradəsi və uzaqgörən siyasəti nəticəsində 2025-ci ilə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş xalq kimi başlayırıq. Bu gün Azərbaycan dünya miqyasında güclü dövlətlər sırasındadır. Beləliklə, Prezident İlham Əliyev müsahibələrində Azərbaycanın normallaşma və sülh prosesinə sadiq qaldığını, qaranlıq, ətrafında qalmaqal və şou yaradılan məsələlərə açıq-aydın münasibət bildirib, bununla həm də Azərbaycan cəmiyyətinin gələcək hədəflərini açıqlayıb. Bir sözlə, ölkə başçısının bu il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibəsi növbəti zəfərlərə olan inamımızı daha da artırdı.

**Mustafa KAMAL,**
**"Respublika".**